

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 66 (24.203)

*14 aprel 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan-Bosniya və Herseqovina əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlinib

### *Azərbaycan Prezidenti İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfər edib*

Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sarayevo şəhərinin Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Bosniya və Herseqovinanın xarici ticarət və iqtisadi əlaqələr naziri Staşa Koşarats və digər rəsmi şəxslər qarşıladılar.

* * *

Bosniya və Herseqovinada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 13-də Sarayevo şəhərinin Musala meydanında rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycanın və Bosniya və Herseqovinanın Dövlət bayraqlarının dalğalandığı meydanda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Prezidentinə raport verdi.

Hərbi orkestrin ifasında Azərbaycanın və Bosniya və Herseqovinanın Dövlət himnləri səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Bosniya və Herseqovinanın dövlət və hökumət nümayəndələri Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviçə təqdim edildi.

* * *

Aprelin 13-də Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç, Rəyasət Heyətinin üzvləri Jelko Komşiç və Denis Beçiroviç ilə görüşü olub.

Əvvəlcə rəsmi foto çəkdirildi.

* * *



Aprelin 13-də Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç, Rəyasət Heyətinin üzvləri Jelko Komşiç və Denis Beçiroviç ilə geniş tərkibdə görüşü olub.

Görüşdə Azərbaycanın Bosniya və Herseqovinanın dostu olduğunu deyən Jelka Tsviyanoviç, Jelko Komşiç və Denis Beçiroviç dövlətimizin başçısının Bosniya və Herseqovinaya daim dostluq münasibəti göstərməsini yüksək qiymətləndirdilər. Xüsusilə Azərbaycanın 2014-cü ildə Bosniya və Herseqovinada baş vermiş daşqınların fəsadlarının aradan qaldırılmasında və COVID-19-a qarşı mübarizədə göstərdiyi maddi və humanitar dəstəyi vurğulayaraq, ölkəmizin Bosniya və Herseqovinada humanitar infrastruktur xarakterli bir sıra layihələrin həyata keçirməsini, o cümlədən gözdən əlil və ahıl insanlar üçün mərkəzlərin təmirini çox yüksək qiymətləndirdilər.

Jelka Tsviyanoviç, Jelko Komşiç və Denis Beçiroviç dövlətimizin başçısının bu səfərinin ölkələrimiz arasında tərəfdaşlığın inkişafında yeni səhifə açacağına və əlaqələrimizin daha da inkişafına ciddi töhfə verəcəyinə əminliklərini bildirdilər. Səfər çərçivəsində həm ikitərəfli gündəlikdə duran məsələlərə, həm də beynəlxalq məsələlərə dair ətraflı fikir mübadiləsinin aparılacağı vurğulandı.

Azərbaycanla Bosniya və Herseqovina arasında siyasi münasibətlərin mükəmməl səviyyədə olduğu, ölkələrimizin bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi xüsusi qeyd edildi. Azərbaycanın Bosniya və Herseqovinada səfirliyinin açılmasının əlaqələrimizin inkişafında mühüm rol oynadığı bildirildi və Bosniya və Herseqovinanın da tezliklə Azərbaycanda səfirlik açmaq niyyətində olduğu qeyd edildi. Bosniya və Herseqovinanın Azərbaycan vətəndaşları üçün viza rejimini aradan qaldırdığı və bu istiqamətdə Azərbaycan tərəfindən də müvafiq addımların atılacağı vurğulandı.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri və üzvləri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilən qətliamın heç zaman unudulmamasının vacibliyinə toxundular, Bosniya və Herseqovinanın tarixi ilə Azərbaycanın tarixində bənzər hadisələrin olduğunu qeyd etdilər.

1972-ci ildə Bakı və Sarayevo şəhərlərinin qardaşlaşması ilə bağlı sazişin imzalandığını xatırladan Prezident İlham Əliyev bu şəhərlər arasında münasibətlərin qardaşlıq zəminində inkişaf etdiyini dedi.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycanla Bosniya və Herseqovina arasında imzalanacaq strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə qaldıracaq.

Prezident İlham Əliyev siyasi münasibətlərimizin daim çox yaxşı səviyyədə olduğunu, ölkələrimizin bir-birinə qarşılıqlı dəstək göstərdiklərini vurğuladı, Azərbaycan torpaqlarının işğal altında olduğu müddətdə də Bosniya və Herseqovinanın həmişə ərazi bütövlüyümüzə və suverenliyimizə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi. Azərbaycanın Bosniya və Herseqovinanın ərazi bütövlüyünü və suverenliyini hər zaman dəstəklədiyini diqqətə çatdıran dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi zamanı da Bosniya və Herseqovinanın Azərbaycana göstərdiyi siyasi dəstəyin təqdir olunduğunu dedi.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycanla Bosniya və Herseqovina arasında iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, enerji, investisiyalar, nəqliyyat, turizm, mədəniyyət, elm, təhsil sahələrində və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar var.

Bu xüsusda iki ölkə arasında imzalanmış Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədən çıxış edərək hökumətlərarası birgə komissiyanın və müvafiq sahələr üzrə birgə əməkdaşlıq layihələrinin inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılması qərara alındı.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan dünyanın bir çox ölkələrində investisiya layihələri ilə çıxış edib və bu xüsusda Bosniya və Herseqovinada da müxtəlif investisiya layihələrində iştirak edə bilər.

Azərbaycanın təbii qazının Balkan regionu və Bosniya və Herseqovinanın qonşu ölkələrinə ixrac edildiyi vurğulanaraq, gələcəkdə enerji sahəsində əməkdaşlıq imkanlarının mümkünlüyü qeyd olundu.

Dövlətimizin başçısı bildirdi ki, həm Azərbaycan, həm də Bosniya və Herseqovina çoxkonfessiyalı ölkələrdir. Bu baxımdan da ölkələrimiz arasında təcrübə mübadiləsinin aparılması da yaxşı haldır. Eyni zamanda ölkələrimizin vətəndaş cəmiyyəti təsisatları, elmtədqiqat mərkəzləri arasında əməkdaşlıq məsələlərinin vacibliyi də bildirildi.

Azərbaycanın və Bosniya və Herseqovinanın minalardan əziyyət çəkən, minalarla çirklənmiş ölkələr olduğu vurğulanaraq, bu sahədə əməkdaşlığın və təcrübə mübadiləsinin aparılmasının önəmi qeyd edildi.

* * *



Aprelin 13-də Sarayevoda "Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanıb.

Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç imzaladılar.

Azərbaycan Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç aprelin 13-də Sarayevoda mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bəyanatla çıxış etdi.

**Sədr Jelka Tsviyanoviçin bəyanatı**

– Hər kəsə təşəkkür edirəm.

Bizim hörmətli qonağımız cənab Prezident İlham Əliyevi salamlayıram. Mən bir aydan bir az çox müddət öncə Bakıda oldum. Orada mənə cənab İlham Əliyev kimi dost tərəfindən isti, mehriban qonaqpərvərlik göstərildi. Orada mən cənab Prezidenti buraya dəvət etdim. Qısa bir zamanda cənab Prezident buraya səfər edib, Bosniya və Herseqovinanın dostu olduğunu sübut edib.

Biz qərara gəldik ki, bu gün artıq əməkdaşlığımızın yeni səhifəsini açaq və daha səmərəli əməkdaşlıq etməyə başlayaq. Bu fürsətdən istifadə edərək, cənab Prezident Əliyevə və ölkənizə 2014-cü ildə bizim ölkədə baş vermiş daşqın zamanı göstərilmiş yardıma görə minnətdarlığımı bildirirəm. Bizim xalqımız böyük çətinliklərlə üzləşmişdi və Azərbaycan o zaman bizim yanımızda oldu, daha sonra koronavirus və pandemiya dövründə də Azərbaycan bizə yardım göstərdi. Bütün bu müddət ərzində Azərbaycan bizim bir neçə şəhərimizdə mühüm lazımi infrastruktur layihələri həyata keçirdi. Banya Luka şəhərində tibbi mərkəz yaradıldı, Sarayevo şəhərində dostluq parkı salındı. Eyni zamanda Sarayevoda tibb müəssisəsi təsis edildi. Ölkəmizdə hər hansı bir çətinlik baş verən vaxtda da Azərbaycan hər zaman bizim yanımızda olmuşdur. Bu gün bizim imzaladığımız Bəyannamə ilə biz strateji tərəfdaşa çevrilmişik. Bu Bəyannamə bizə imkan verəcək ki, daha sıx siyasi dialoq həyata keçirək, eyni zamanda daha səmərəli iqtisadi əməkdaşlıq edək. Bunun sayəsində biz – işgüzar dairələr, dövlət qurumları həm iqtisadi mənfəət görəcəyik, eyni zamanda təhlükəsizlik sahəsində də əməkdaşlıq başlanılacaq.

Çox şadıq ki, Azərbaycan artıq Bosniya və Herseqovinada səfirliyini açmışdır və mən məmnuniyyətlə qeyd edə bilərəm ki, biz də ölkəmizin Bakıda səfirliyini açmaq

*Ardı 2-ci səhifədə*

qərarına gəlmişik. Biz bunu həyata keçirəcəyik və bu məsələ ilə bağlı da cənab Prezidentə məlumat vermək istəyirəm ki, biz hər üç üzv yekdil qərar verdik ki, Bakıda səfirliyin açılması vacibdir. Bununla bağlı təlimatlarımızı artıq Xarici İşlər Nazirliyinə vermişik və əminəm ki, səfirliyimiz açılan kimi onun bəhrəsini görəcəyik.

Qeyd edim ki, Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb, artıq biz indi praktiki əməkdaşlığa başlayırıq. Dünən biz Azərbaycanın iqtisadiyyat naziri və nümayəndə heyəti ilə görüş keçirdik. Bizim Nazirlər Şurasında və işgüzar dairələrdə görüşlər həyata keçirildi ki, biz hansı istiqamətdə əməkdaşlığımızı davam etdirə bilərik. Bizim nəqliyyat, energetika, turizm və digər sahələrdə imkanları nəzərdən keçirdik. Hesab edirəm, bu, yaxşı fürsətdir ki, biz bununla bağlı nazirliklərimizə təlimat verək ki, konkret layihələrlə bağlı siyahı hazırlansın, maraqlarımız nədən ibarətdir, sərmayə harada tələb olunur. Biz bütün bunlarla bağlı təlimatlarımızı verəcəyik.

Azərbaycan bizim üçün çox mühüm ölkədir. Bu gün biz bunu bəyan edirik ki, bir-birimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda ikitərəfli münasibətlərimiz də daha yüksək səviyyəyə qalxacaqdır. Çox şadam ki, biz bu məsələdə də inkişaf görürük.

Cənab Prezident, Sizi burada salamlamaq mənim üçün böyük şərəfdir. Sağ olun ki, mənim dəvətimi qəbul etdiniz. Şadam ki, bu gün biz bu fürsəti əldə etmişik. Burada da əzmimizi ifadə edirik ki, əməkdaşlığımızı davam etdirəcəyik.

Sizə təşəkkür edirəm.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli xanım Sədr, hörmətli cənab Komşiç, hörmətli cənab Beçiroviç.

Hörmətli xanımlar və cənablar.

İlk növbədə, xanım Sədr, mənə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən gözəl ölkənizdə olmağımdan çox məmnunam. Siz qeyd etdiyiniz kimi, biz Sizinlə bir ay yarım bundan əvvəl Bakıda görüşmüşdük. Siz məni ölkənizə dəvət etmişdiniz və mən böyük məmnuniyyətlə bu



dəvəti qəbul edib bu gün Sizin ölkənizdəyəm.

Bu gün biz geniş fikir mübadiləsi əsnasında Bosniya və Herseqovina-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı vahid mövqeyə gəlmişik. Yəni bu əlaqələr bundan sonra yüksələn xətlə inkişaf edəcək.

Əlaqələrimizin tarixi də çox gözəldir. Xüsusilə siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr bizim münasibətlərimizi yüksək səviyyəyə qaldırmışdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi bütün məsələlərdə dəstəkləmişik və bu dəstək bu gün də hiss olunur. Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi.

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm, iki il yarım bundan əvvəl Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı öz ərazi bütövlüyünü bərpa edəndə Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanı dəstəkləmişdir, bizim haqq işimizi dəstəkləmişdir. Bu, dostluq və qardaşlıq mövqeyidir, buna görə biz Sizə minnətdarıq.

Azərbaycan da, öz növbəsində, bütün məsələlərdə, o cümlədən Bosniya və Herseqovinanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı birmənalı şəkildə Bosniya və Herseqovinanın maraqlarını dəstəkləmişdir.

Bu gün isə bizim münasibətlərimizin yeni səhifəsi başlayır. Rəsmi səfər çərçivəsində aparılan danışıqlar, qeyd etdiyim kimi, yeni imkanlar açır. O cümlədən bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə gələcək inkişafımızın istiqamətlərini göstərir.

Biz müntəzəm olaraq siyasi və diplomatik müstəvidə məsləhətləşmələr aparacağıq. Eyni zamanda iqtisadi sahədə işlər daha məqsədyönlü şəkildə aparılacaq. Birgə komissiya, yəni Birgə İqtisadi Komissiya haqqında qərar qəbul edilmişdir. Bu gün aparılan danışıqlar əsnasında, eyni zamanda konkret layihələr üzrə işçi qrupunun yaradılması da razılaşdırılıb və qısa müddət ərzində bu istiqamətdə addımlar atılacaq.

Strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur. Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

Əməkdaşlığın digər istiqamətləri ilə bağlı onu deyə bilərəm ki, ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir. Biz xahiş etdik ki, bizə konkret investisiya layihələri təqdim edilsin. Biz bu layihələrə baxaq, onları incələyək və qısa müddət ərzində öz cavabımızı verək. Biz ölkənizə sərmayə qoymaqda maraqlıyıq.

Eyni zamanda energetika sahəsində çox geniş imkanlar vardır. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq. Müvafiq göstərişlər artıq verilmişdir.

Bununla bərabər, hidroenergetika, eyni zamanda bərpa olunan digər enerji növləri üzrə birgə araşdırmalar aparılacaq. Əminəm ki, bu istiqamətdə də ciddi addımların atılması mümkün olacaq. Azərbaycan xarici ölkələrə milyardlarla dollar həcmində sərmayə qoyubdur və əlbəttə ki, Bosniya və Herseqovina ilə bu sahədə əməkdaşlıq bizim üçün çox maraqlıdır.

Bununla paralel olaraq nəqliyyat sahəsində əməkdaşlığın bütün istiqamətləri geniş araşdırılmalıdır. Azərbaycan Orta Dəhliz layihəsi üzrə öz ərazisində bütün lazımi infrastruktur layihələrini icra edib, onları başa çatdırıb, eyni zamanda digər ölkələrdə nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı böyük sərmayə qoyur. Ona görə Cənubi Qafqaz və Balkan regionları arasında nəqliyyat bağlantısı da hesab edirəm ki, bütün bölgələrimizdə yaşayan xalqlar üçün faydalı ola bilər.

Biz bu gün söhbət zamanı, həmçinin mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı fikir mübadiləsi apardıq, bizim təcrübəmizi bölüşdük. Hesab edirəm ki, bu istiqamətdə də birgə fəaliyyətin böyük önəmi ola bilər. Həm Bosniya və Herseqovina, həm Azərbaycan çoxkonfessiyalı ölkələrdir. Bizim ölkələrimizdə bir çox etnik qruplar yaşayır və bu etnik qrupların sülh, əmin-amanlıq, dostluq, qardaşlıq şəraitində yaşaması sabitlik üçün əsas şərtdir. Burada da fikir mübadiləsi, təcrübə mübadiləsi, birgə fəaliyyət, o cümlədən elm, təhsil sahələrində, qeyri-hökumət təşkilatları çərçivəsində birgə əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Mən bir daha bu dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Bir məqamı da qeyd etməliyəm ki, 1972-ci ildə – hələ Sovet İttifaqı və Yuqoslaviyanın mövcudluğu dövründə Bakı və Sarayevo arasında qardaşlaşma sazişi imzalanmışdır. O vaxtdan Sarayevo və Bakı qardaş şəhərlər sayılır. Əminəm ki, bu səfərdən sonra bizim qardaşlığımız daha möhkəm olacaq. Sağ olun.

* * *



Aprelin 13-də Sarayevoda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Bosniya və Herseqovinanın Rəyasət Heyəti tərəfindən rəsmi nahar verilib.

Nahardan sonra Prezident İlham Əliyevə xizək hədiyyə edildi.

Bildirildi ki, tamamilə əl işi olan bu xizəyin orijinalını 1984-cü ildə Sarayevoda keçirilmiş Qış Olimpiya Oyunları zamanı bosniya və herseqovinalı idmançı istifadə edib. Bu hədiyyə məxsusi olaraq Prezident İlham Əliyev üçün hazırlanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinaya rəsmi səfəri aprelin 13-də başa çatıb.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Sarayevo şəhərinin Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



*“Naxçıvan” Universitetində Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının, Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin, Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının iştirakı ilə “Ulu Öndər Heydər Əliyev irsində kitab və mütaliə” mövzusunda tədbir keçirilib.*

Tədbir Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canını qurban vermiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

“Naxçıvan” Universitetinin rektoru, dosent Anar Kazımov bildirib ki, Azərbaycan mədəniyyətinin inkişafına və milli-mənəvi dəyərlərimizin mühafizə olunaraq gələcək nəsillərə çatdırılmasına böyük diqqət və qayğı ilə yanaşan Ulu Öndərimiz kitaba və mütaliəyə həmişə böyük dəyər vermişdir. Kitabı mənəvi zənginliyin və elmlərə yiyələnməyin mühüm açarı hesab edən görkəmli dövlət xadimi Heydər Əliyev daim gəncləri və ətrafındakı insanları mütaliə etməyə, kitabla həmsöhbət olmağa dəvət etmiş, həyatda kamil insan kimi yetişməyin, zəngin biliklərə yiyələnməyin yeganə yolunun mütaliədən keçdiyini söyləmişdir.

“Naxçıvan” Universiteti Elmi Kitabxanasının müdiri Emelya Süleymanova “Ümummilli Lider Heydər Əliyevin kitaba və mütaliəyə verdiyi dəyər”, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının müdiri Tamella Əsgərova “Ulu Öndər Heydər Əliyev və Azərbaycanda kitabxana işi”, Naxçıvan Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Minayə Nəbisoy “Azərbaycanda mütaliənin inkişafında Heydər Əliyev mərhələsi”, Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının direktoru Ruzi Süleymanov “Kitab və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi” adlı mövzularda çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Ümummilli Liderimiz dəfələrlə vurğulamışdır ki, böyüməkdə olan nəslin mənəvi, intellektual və estetik inkişafında mütaliənin rolu danılmazdır. Mütaliə insanları maarifləndirir, ümumi mədəni səviyyəni yüksəldir, dünyagörüşünü genişləndirir, yaradıcı potensialı üzə çıxarır. İnsanın xəyal dünyasını zənginləşdirir, təsvir bacarığını gücləndirir. Dahi şəxsiyyət ən təsirli tərbiyə vasitəsi olan, düzgün əxlaqi davranış motivlərinin də tərbiyə edilməsində mühüm rol oynayan mütaliənin düzgün təşkilinə xüsusi əhmiyyət vermişdir.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

Naxçıvan Müəllimlər İnstitutunda “Ulu Öndər Heydər Əliyev və Azərbaycançılıq ideologiyası” mövzusunda keçirilən seminarı giriş sözü ilə institutun ixtisasartırma və yenidənhazırlanma üzrə prorektoru Həbibə Allahverdiyeva açıb.



Mövzu ətrafında Humanitar və ictimai fənlər kafedrasının müəllimi Qorxmaz Hacızadə çıxış edib. Diqqətə çatdırılıb ki, Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Vurğulanıb ki, müasir dövrdə diaspor quruculuğu konkret zamanla məhdudlaşmayan, daimi fəallıq və zəhmət tələb edən uzunmüddətli prosesdir. Reallıq göstərir ki, xaricdəki Azərbaycan diasporunun imkanlarından geniş istifadə olunması, ölkə həyatının müxtəlif sahələrində meydana çıxan problemlərin həllində onun fəal iştirakının gerçəkləşdirilməsi yolunda hələ çox işlər görülməlidir. Prezident cənab İlham Əliyevin bu sahədə ardıcıl və qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması deməyə əsas verir ki, yaxın illərdə Azərbaycan diasporu daha da güclənəcək, doğma Vətənin taleyüklü problemlərinin həllində daha yaxından iştirak edəcəkdir.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

## Azərbaycanın ilk qadın akademiki Zərifə xanım Əliyevanın elmi nailiyyətləri milli oftalmologiyamızın tarixi uğurudur




*Hər bir xalqın istedadlı elm adamları, siyasi xadimləri, ziyalıları və yaradıcı şəxsiyyətlərinin qazandıqları nailiyyətlər mənsub olduqları xalqın maddi və mənəvi sərvətidir. Bu baxımdan bir çox sahədə istedadlı şəxsiyyətlər yetirmiş xalqımız öz zəngin elmi-praktiki fəaliyyəti ilə hər bir elm adamına örnək ola bilən Zərifə xanım Əliyevanın həyat yolu ilə fəxr edə, qürur duya bilər.*

Ömrünü tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra atasının ömür yolunu özünə əsl həyat məktəbi seçərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə institutu əla qiymətlərlə bitirmişdir.

Həkimlik fəaliyyətinin ilk illərindən Zərifə xanım Əliyeva o illərin geniş yayılmış və çox vaxt korluqla nəticələnən traxoma xəstəliyinə qarşı mübarizə aparmağa başlayır. Bu xəstəliyin ölkəmizdə geniş yayılması, təsirli müalicə üsullarının və profilaktikasının olmadığını nəzərə alan Zərifə xanım bu qorxulu xəstəliyin radikal müalicəsinin elmi əsaslarını işləyib hazırlamağı qarşısına məqsəd qoyur.

Moskvada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik klinik ordinatura keçən Zərifə xanım 1949-cu ildə Azərbaycan Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi kimi fəaliyyətə başlayır, 1950-ci ildə isə aspiranturaya daxil olur. O öz elmi axtarışlarını həmişə təcrübi həkimlik fəaliyyəti ilə əlaqəli şəkildə davam etdirir. Minlərlə ağır xəstənin müalicəsi və traxomanın bir xəstəlik kimi ləğvi ilə nəticələnən çoxillik elmi-praktik tədqiqatlarının nəticəsi olaraq Zərifə xanım Əliyeva 1960-cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edir.

Sonrakı illərdə Zərifə xanım vərəm, şəkər və qlaukoma xəstəlikləri nəticəsində gözün zədələnmə xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş tədqiqat əsərləri ilə təbabətin bu ağır sahəsinə yeniliklər gətirmişdir. Onun qlaukoma xəstəliyi ilə bağlı tədqiqatları klinik göz xəstəliyi sahəsində çalışan həkimlərin biliklərinin genişlənməsinə müsbət təsir göstərib.

Zərifə xanım Əliyeva 1960-1967-ci illərdə Oftalmologiya İnstitutunda böyük elmi işçi vəzifəsində çalışıb. Bu sahədə apardığı dəyərli tədqiqatlara, gördüyü işlərə görə 1963-cü ildə SSRİ Ali Attestasiya Komissiyası ona Oftalmologiya ixtisası üzrə böyük elmi işçi adını verib.

1967-ci ildə Zərifə xanım Əliyeva Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunur. 1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva az tədqiq edilən, lakin kifayət qədər aktual bir problem sayılan görmə orqanının peşə xəstəlikləri ilə məşğul olmağa başlayır. Onun təşəbbüsü ilə 1977-ci ildə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu Bakı şəhərində keçirilmişdir. Bu plenumda Zərifə xanım Əliyevanın təklifi ilə regionun ən böyük sənaye mərkəzlərinə çevrilmiş Bakı və Sumqayıt şəhərlərində onlarla neft-maşınqayırma, kimya zavodlarının fəaliyyət göstərməsi, bu zavodlarda xammal kimi istifadə olunan və istehsal edilən müxtəlif kimyəvi maddələrin gözə təsirinin öyrənilməsi, zərərli təsirlərin qarşısının alınması və patoloji proseslərin müalicəsi sahəsində, SSRİ miqyasında mövcud olmayan, görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ilk ixtisaslaşdırılmış klinik-eksperimental elmi-tədqiqat laboratoriyasının yaradılması tövsiyə edilir.

1979-cu ildə Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda dünyada ilk dəfə olaraq görmə orqanının peşə patologiyasını araşdıran laboratoriya yaradılmış və bu laboratoriyada Zərifə xanım Əliyevanın rəhbərliyi altında dəyərli elmi-tədqiqat işləri aparılmış, əldə edilən yeniliklər məharətlə praktik oftalmologiyaya tətbiq edilmiş və beləliklə elm aləmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsası qoyulmuşdur. Bu laboratoriyada Zərifə xanım Azərbaycanın bəzi kimya sənayesində işçilərin görmə orqanının vəziyyətinə zəhərli kimyəvi maddələrin zərərli təsirini öyrənmişdir. Zərifə xanımın təşəbbüsü ilə 1979-cu ildə Bakı Məişət Kondisionerləri Zavodunun nəzdində Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunun “Görmə orqanının fiziologiyası və peşə patologiyası” adlı unikal bir laboratoriya yaradılır. Üç şöbədən ibarət olan bu laboratoriya tezliklə ölkəmizdə görmə orqanının peşə xəstəliklərinin profilaktikası, diaqnostikası və müalicəsi mərkəzinə çevrilir. Zərifə xanımın bu təcrübəsi keçmiş SSRİ-nin digər sənaye şəhərlərində də bəyənilərək rəğbətlə qarşılanmış və geniş tətbiq edilmişdir.

Müayinə edilmiş kontingentdə göz qapaqları, konyunktiva, gözyaşı yollarının dəyişikliklərinin, buynuz qişanın həssaslığının zəifləməsinin, tor qişanın, damarlı yolun, gözün görmə sinir aparatının distrofik dəyişikliklərinin, işıq-rəng duyğularının zəifləməsi tezliyinin artması təsdiq olunmuşdur. Stirol buxarının təsirindən əmələ gələn inadlı, residiv verən və qapaqların dermatiti ilə müşayiət edilən peşə konyuktivitinin klinikasını məhz Zərifə xanım ilk dəfə təsvir etmişdir. Aşağı konsentrasiyalı stirolun, tetraxloretilen buxarının, pestisidlərin, o cümlədən toz, talk, his, kanifol, təbaşir kimi maddələrin, şin istehsalının, yod istehsalının toksik amillərinin, respublikada inkişaf etmiş kimya istehsalatının digər toksik maddə və məhsullarının orqanizmə təsiri nəticəsində görmə orqanının morfologiyasında və funksiyasında yaranan dəyişikliklərin səviyyəsinə aid tədqiqatların materialları 30-dan artıq elmi iş şəklində ən nüfuzlu jurnallarda dərc olunmuşdur.

Aparılan klinik-eksperimental oftalmomorfoloji, histomikroskopik və histokimyəvi elmi tədqiqatların nəticəsi olaraq Zərifə xanım Əliyevanın müəllifi olduğu “Gözyaşının axmasının fiziologiyası”, “Gözün hidrodinamik sisteminin anatomik-fizioloji təbiəti” və sair kimi onlarla elmi məqalə və monoqrafiyalar dərc edilərək geniş tibb ictimaiyyətinin istifadəsinə verilmişdir.

Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın “Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti” mövzusunda doktorluq dissertasiyasının əsas müddəalarını təşkil etmiş və o, 1976-cı ildə Q. Helmholts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanı uğurla müdafiə etmişdir.

1977-ci ildə ona tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir. 1979-cu ildə Zərifə xanımın müəllifliyi ilə “Gözün herpetik xəstəliyi” və “Kəskin viruslu konyuktivit” dərs vəsaitləri dərc olunmuşdur. Zərifə xanım Əliyevaya 1980-ci ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmiş və elə həmin ildə professor Zərifə xanım Əliyevanın “Şin istehsalında gözün peşə patologiyası”, “Görmə sisteminin anatomik-fizioloji hidrodinamikasının xüsusiyyətləri” (professor N.B.Şulpina ilə birlikdə) və “Xroniki yod intoksikasiyasının oftalmologiyası” adlı üç monoqrafiyası dərc edilmişdir.

Görkəmli alimin elmi fəaliyyətinin əsas istiqamətlərindən biri də gözyaşı aparatının fiziologiyasının, gözyaşı yolları xəstəliklərinin patogenezinin öyrənilməsi və onların cərrahi müalicəsi üsullarının işlənməsi olmuşdur. Zərifə xanımın rəhbərliyi altında dakriosistitin yeni, daha effektiv və fizioloji cərrahi müalicə üsulları işlənilmiş və təcrübədə tətbiq edilmiş, həmin cərrahi əməliyyatların aparılması üçün yeni alətlər təklif olunmuş və hazırlanmış, gözyaşı kisəsinin fleqmonasının kompleks müalicə üsulu işlənilmişdir. Bu problemə Zərifə xanımın bir sıra dəyərli elmi əsərləri həsr olunmuşdur ki, onların arasında “Gözyaşı yollarının fiziologiyası” və “Gözyaşı axmalarının müasir cərrahiyyə üsulları ilə müalicəsi” monoqrafiyaları xüsusi yer tutur.

Onun elmi fəaliyyətinin bir istiqaməti də klinik-diaqnostik müayinələr olmuşdur ki, bunların nəticəsində həkimlər üçün hazırlanmış bir sıra tədris kitabları nəşr edilmişdir. Bunların içərisində “Terapevtik oftalmologiya” və oftalmoloji cəmiyyətdə böyük məmnuniyyətlə qəbul edilmiş və hələ də öz dəyərini itirməmiş “Oftalmologiyanın aktual problemləri” kimi monoqrafiyaları qeyd etmək lazımdır.

Tanınmış oftalmoloq tezliklə fundamental elmi araşdırmaların müəllifi kimi də şöhrət qazanmışdır. Onun “Yaşla əlaqədar olaraq gözün və görmə-sinir yollarının dəyişiklikləri” və Özbəkistanda nəşr olunmuş “Şəkərli diabet zamanı göz xəstəlikləri” adlı monoqrafiyaları Orta Asiya və Qafqaz regionunda insanlar arasında geniş yayılmış şəkərli diabet zamanı müşahidə olunan göz xəstəliklərinin patoloji, klinik, diaqnostik və müalicəvi xüsusiyyətləri tədqiq edilmişdir.

Zərifə xanım deontologiya və həkim etikası məsələləri ilə yaxından məşğul olmuş, həkimin daxili aləmi, vəzifə borcu, xəstələrə və ətrafdakılara münasibəti haqqında öz fikirlərini “Yüksək vəzifə” və “Həkimin əxlaqi tərbiyəsi, deontologiya, səhiyyə etikası və əxlaq məsələləri” adlı monoqrafiyalarında geniş surətdə işıqlandırmışdır.

Görkəmli akademikimizin elmi fəaliyyətinin çox maraqlı və perspektiv istiqamətlərindən biri də iridodiaqnostika və iridoterapiya problemi olmuşdur. Bu sahədə aparılmış elmi tədqiqatların nəticələri “Gözün bəbək haşiyəsinin adaptasion-qoruyucu vəzifəsi haqqında” elmi işinin və o zaman Sovetlər İttifaqında ilk dəfə çıxan və analoqu olmayan iki dəyərli monoqrafiyanın nəşr edilməsidir. Bu monoqrafiyaların biri “İridodiaqnostikanın əsasları” Bakıda “Azərnəşr”də, ikincisi isə – “İridodiaqnostika” Moskvada, “Medisina” nəşriyyatında çapdan çıxmışdır. Müəllif bu monoqrafiyalarda buynuz qişa, sklera, büllur kimi parairidal strukturların patoloji dəyişiklikləri və qüzehli qişada olan markerlər arasında olan diaqnostik əlaqələrin mövcudluğu haqqında dəyərli fikirlər söyləmiş və bu da yeni maraqlı tədqiqatların başlanğıcı üçün bir təkan olmuşdur.

Elmi-pedaqoji və elmi kadrlar hazırlanması sahəsindəki xidmətlərinə görə 1980-ci ildə Zərifə xanım Əliyevaya “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adı verilmişdir.

Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqat işlərinin uğurlu nəticələrinə görə Zərifə xanım Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşüb.

Milli oftalmologiya elmini dünyada tanıdan professor 1983-cü ildən Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının müdiri seçilmişdir. Elə həmin ildə tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, “Əmək veteranı” medalı və “Qırmızı Əmək Bayrağı” ordeni laureatı Zərifə xanım Əliyevanın elmi xidmətlərinin nəzəri və praktik xidmətləri öz layiqli dəyərini almış, o, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Zərifə xanım Əliyeva dünya tibb elmində aparıcı alimlərdən biri kimi tanınmış və tibb ictimaiyyəti arasında dərin hörmət qazanmışdır. Görkəmli akademik mühüm ictimai işlər aparmış: Ümumittifaq Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin və Ümumittifaq “Bilik” Cəmiyyəti İdarə Heyətinin, Sovetlər İttifaqında Sülhü Müdafiə Komitəsinin üzvü və Azərbaycanda Sülhü Müdafiə Komitəsi sədrinin müavini, “Vestnik oftalmologiya” jurnalı redaksiya heyətinin üzvü, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Geniş Elmi Şurasının və Baş Cərrahlar Şurasının üzvü olmuşdur.

Görkəmli akademik “Terapevtik oftalmologiya”, “İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərlərin həmmüəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi məqalənin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir. O, onlarla elmlər doktoru və elmlər namizədinin elmi məsləhətçisi və rəhbəri olmuş, böyük bir elmi məktəb yaratmışdır. Onun rəhbərliyi altında yüzlərlə həkim oftalmologiya elminin sirlərinə yiyələnmiş, minlərlə insanın sağlamlığını bərpa etmiş və onları faydalı əməyə qaytarmışdır.

Bəşər tarixində nadir şəxslərə qismət olmuşdur ki, dövlət xadiminin övladı, həyat yoldaşı və anası kimi şöhrətin ən uca mərtəbəsinə yüksəlsin, lakin özünün qazandığı insanlıq zirvəsini bütün şan-şöhrətlərdən uca tuta bilsin. Məhz akademik Zərifə xanım Əliyeva insanlığın zirvəsində qərar tutmuş əbədiyyət yolçusudur.

*Heydər Əliyev-Zərifə Əliyeva məktəbi Azərbaycanımız üçün cənab İlham Əliyev kimi lideri yetişdirib. Bu gün müstəqil Azərbaycanımız bütün sahələrdə uğurla inkişaf edir, onun təcrübəsi dünyaya nümunə göstərilir. Ulu Öndərin **“Azərbaycan dünyaya günəş kimi doğacaq”** fikri bu günümüzün reallıqlarında öz əksini tapıb. Prezident cənab İlham Əliyev təsdiq etdi ki, bugünkü Azərbaycan Ulu Öndər Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Güclü, qüdrətli Azərbaycan hər birimiz üçün qürur mənbəyidir!*

**İsa ABDULLAYEV**
***Tibb elmləri doktoru,Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin professoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi***

## *“Açıq qapı”* günü təşkil edilib



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşları Şərur rayonunda “Açıq qapı” günü təşkil ediblər.

Şərur Rayon Məhkəməsinin inzibati binasında keçirilən qəbul zamanı vətəndaşların, əsasən, aliment, pul tələbi, qeydiyyat və notariat əməliyyatları ilə bağlı müraciətləri dinlənilib.

Müraciət edən şəxslər fərdi qaydada qəbul edilərək onlara qanunamüvafiq məsləhətlər verilib və həlli mümkün olan məsələlərə dəstək göstərilib. Ədliyyə Nazirliyinin səlahiyyət dairəsinə aid araşdırma tələb edən müraciətlər isə həll edilməsi ilə bağlı nəzarətə götürülüb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikasında elektron qaimə-fakturalar üzrə dövriyyə 393 milyon manatdan çox olub

Naxçıvan Muxtar Respublikasında aparılan islahatlar, biznesin fəaliyyətinin şəffaflaşdırılması istiqamətində atılan addımlar müsbət nəticələr verməkdədir.

2023-cü ilin yanvar-mart aylarında muxtar respublikada ƏDV ödəyiciləri tərəfindən təqdim edilmiş elektron qaimə-fakturalar üzrə 178,9 milyon manatdan çox, əldə olunmuş elektron qaimə-fakturalar üzrə isə 214,1 milyon manatdan çox dövriyyə qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə təqdim edilmiş elektron qaimə-fakturalar üzrə 2,1 dəfə, əldə olunmuş elektron qaimə-fakturalar üzrə 2,6 dəfə artım müşahidə olunub.

**Xəbərlər şöbəsi**

*Əfsanəyə dönən ömürlər*

## Məzarını mələklər yuyan şəhidim

Heç bir qanqohumluğu çatmayan, ancaq sənə çox doğma olan bir insanın acısını qəlbində hiss etmək necə də çətindir. Naxçıvan sakinləri də aprelin 12-si bu ağrıları qəlbində hiss edərək öz şəhidini qarşıladılar. Aprelin 11-də məğlubiyyətini və acizliyini heç cür qəbul etməyən mənfur düşmənimizin növbəti təxribatı zamanı qəhrəmanlıqla şəhid olmuş Azərbaycan Ordusunun Naxçıvandan olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər Səbuhi Gündüz oğlu Tağıyevin gəlişinə yalnız Naxçıvan deyil, həm də yer-göy ağladı. Böyükdən-kiçiyə hər kəs əlində üçrəngli bayraqla onun gəlişini gözləyirdi. Havanın kəskin yağışlı olmasına baxmayaraq, yol kənarında bir ağsaçlı ana əlində bayraq tutaraq dayanmışdı. Ona yaxınlaşaraq öyrəndim ki, qadın Vətən müharibəsində şəhid olmuş ***Rasim Ramazanovun anası Tərlan ana***dır. Onun üzündə həm qürur var idi, həm də kədər. Tərlan ana bildirdi ki, şəhidlər bir ölüb min dirilər. Onlar bu Vətənin ölməz qəhrəmanlarıdır. Səbuhi də oğlum Rasimlə birgə cənnətdən bizi izləyirlər.





Yağan yağış getdikcə daha güclənsə də, şəhidimizi qarşılamağa çıxanların sayı getdikcə artırdı.

1998-ci il təvəllüdlü şəhid Səbuhi Tağıyev böyük izdihamla Şahbuz rayonunun Badamlı qəsəbəsinə gətirilərək burada dəfn olundu. Düşmən təxribatının qarşısını alarkən canından keçərək qəhrəmancasına vuruşaraq ürəyində böyük Vətən sevgisi daşıyan Səbuhinin şəhidlik zirvəsinə yüksəlməsi onun doğma yurd yerinə böyük sevgi və məhəbbətinin ifadəsidir. Bu gün sevinirik ki, yetişən bütün gənclərimiz ürəklərində belə sevgi və məhəbbət daşıyırlar.

Şəhidimizin əmioğlusu ***Əmrah Məmmədov*** deyir ki, Səbuhi qəhrəmanlığı ilə arzuladığı şəhidlik zirvəsinə ucaldı. Biz onunla qürur duyuruq, onun içindəki Vətənə sədaqət, torpağa bağlılıq uşaq yaşlarından özünü göstərirdi. Buna görə də o, hərbçi peşəsini seçdi, Ulu Tanrı qarşısına başı dik, üzüağ çıxdı bu məqamla. Çox cəsur idi.

Müsahibimin sözlərinə görə, Səbuhi Tağıyev hər zaman komandirinə "məni də Naxçıvana gətirilən şəhidlər kimi qarşılayacaqlar, amma, komandir, tabutumu sən daşıyarsan", – sözlərini deyirmiş. Elə də oldu, onun bu arzusu yerinə yetdi. Həmin komandir dəfndə iştirak edərək şəhidimizin vəsiyyətini yerinə yetirdi. Əmrah onu da deyir ki, şəhidimizin atası Gündüz Tağıyev Səbuhi dəfn olunan zaman bildirib ki, mən oğlumu öldü bilmirəm, mən oğluma şəhid toyu edirəm. Şəhid atasının bu sözləri Səbuhinin necə bir vətənpərvər ailədə böyüdüyünün sübutudur.

...Azərbaycanın ərazi bütövlüyü uğrunda öz qanları bahasına şəhid düşmüş bütün qardaşlarımız müqəddəs bir amal ətrafında birləşdi: "Təki Vətən sağ olsun!" 44 günlük müharibədə onlar öz canlarını fəda edərək şücaətlik nümunəsi göstərdilər. Şəhidlərimizin hər biri gələcək nəsil üçün bir nümunədir. Ölkəmizin çətin günlərində qəhrəmanlıqla ölümün gözünə dik baxan şəhidlərimizin ruhu qarşısında baş əyirik. Vətən uğrunda öz canından keçən hər bir qəhrəman bizim qəlbimizdə əbədi yaşayacaq. Səbuhi Tağıyev də bu qəhrəmanlardan biri oldu.

İtirdiklərimiz çox olsa da, qürur duyuruq ki, Azərbaycanın əzəli və əbədi torpaqları uğrunda girdiyimiz bu haqq savaşında qalib ölkəyik artıq. Mənfur düşmən hansı yollara əl atsa da, biz öz haqq savaşımızdan geri çəkilməyəcəyik. Hər kəsin qəlbində və dilində tək bir şüar səslənir: Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

✍ **Bülbül QULİYEVA**

*Tarixi abidələrimiz milli sərvətimizdir*

# Xaraba Gilan



*Qədimliyin və müasirliyin harmoniyasını özündə əks etdirən Ordubadda Naxçıvan memarlıq məktəbinin orta əsrlərə aid möhtəşəm mədəniyyət nümunələrindən olan məscid, buxzana, çeşmə, hamam və tarixi abidələr hər zaman diqqəti cəlb edib. Bu tarixi abidələrin əksəriyyəti Səfəvilər dövründə, xüsusilə I Şah Abbasın hakimiyyəti illərində inşa edilsə də, onların bəzilərinin tarixi daha qədimdir. Ümumiyyətlə, tarixi mənbələr göstərir ki, buranın bir şəhər kimi formalaşması V-VI əsrlərə təsadüf edir. Ordubad rayonunun Aza və Dizə kəndləri yaxınlığında, Gilançay, Düylünçay və Araz çaylarının arasındakı yüksəklikdə yerləşən, ən qədim məskənlərdən biri olan Gilan isə bunun əyani sübutudur.*

"Xaraba Gilan" adlandırılan bu ərazidə aparılan arxeoloji qazıntılar zamanı buradan Roma, Sasani, Abbasilər, Samanilər, Atabəylər, Şirvanşahlar və Hülakilər dövlətlərinə aid qızıl, gümüş və mis sikkələr tapılıb. Bu da sözügedən ərazinin qədimliyi ilə yanaşı, mühüm ticarət mərkəzlərindən biri olmasını sübut edir. Tarixi mənbələrdə orta əsrlərə aid adı Kiran, Gilan və ya Giran olan bu şəhər Ordubad rayonundan 16-17 kilometr qərbdə, Naxçıvan-Ordubad avtomobil yolunun şimalında yerləşir. Aparılan arxeoloji qazıntılar zamanı məlum olub ki, bu ərazidə şəhər mədəniyyəti ilk antik dövrdə V–IV əsrlərdə yaranıb. Hətta İbn əl-Əsir (XIII əsr), Yaqut Həməvi (XIII əsr), Zeynəddin Qəzvini (XIV əsr), Məhəmməd ibn Həmdullah Naxçıvani (XIV əsr) əsərlərində Gilanın Azərbaycanın qədim və əzəmətli şəhərlərindən biri olması haqqında məlumatlar var. Rusiyalı Qafqazşünas İvan Şopen isə Ordubadda Kilit kəndinin əhalisinin ətraf kəndlərin anlamadığı dildə danışdığını da qeyd edib. İddialara görə, Ordubad ərazisində bir neçə kənd bu dildə danışıb, lakin XX əsrə kimi bu dil yalnız Kilit kəndində qalıb. Bu fakt isə onu göstərir ki, Xəzəryanı Gilan ərazisində yaşayan giləklər müəyyən dövr ərzində bu əraziyə köçürülüb və onlar eyniadlı yeni şəhəri burada salıblar.

İndi Xaraba Gilan nəinki Naxçıvan, bütövlükdə Azərbaycan şəhərlərinin yaranması, inkişafı problemlərinin tədqiqi üçün çox əhəmiyyətli bir ərazidir. Ordubad Rayon Tarix-Memarlıq Qoruğunun direktoru ***Əminə Alməmmədova*** dağılmış şəhərlə bağlı bizimlə söhbətində bildirdi ki, bura böyük tədqiqatçı-alimlər Hindușah Naxçıvani və Məhəmməd Naxçıvaninin doğulub böyüdüyü şəhərdir. Bu ərazidə qədim memarlıq üslubunda inşa edilmiş evlər, sərdabələr və hamam var. Arxeoloji qazıntılar zamanı buradan bəzi əşya qalıqları aşkarlanıb ki, bu da həmin şəhərin yaşının daha qədimə bağlandığını göstərir. Xaraba Gilanın ərazisində alimlər ilk dəfə 1926-1929-cu illərdə tədqiqatlar aparıblar. 1979-cu ildə isə şəhər ərazisində başlanılmış arxeoloji tədqiqatlar fasilələrlə davam etməkdədir. Şəhərin ərazisi 100 hektardan çoxdur. Abidənin qərb tərəfində eramızdan əvvəl II-I minilliklərə aid yaşayış məskəni və nekropol aşkar edilib.





XIII əsrdə ciddi dağıntılara məruz qalan bu şəhər hələ tam bərpa edilməmişdən qısa müddət sonra – XIV əsrin sonlarında Əmir Teymur tərəfindən dağıdılıb, Səfəvilər sülaləsindən I Şah Abbasın hakimiyyəti dövründə isə tamamilə tənəzzülə uğrayıb. Şəhərin əhalisi Ordubad rayonunun Azadkənd və Darkənd yaşayış məntəqələrinə köçüb.

Qoruğun nəzarətçisi ***Elxan Həsənov*** deyir ki, bura 70-ci illərdə bir çoban tərəfindən tapılıb, 1979-cu ildən isə qoruq kimi fəaliyyət göstərir. Xaraba Gilanda qədim abidələr, sərdabələr və yuxarıda, dağın başında hamam var. 1000-ə yaxın dağıdılmış, uçmuş evin qalıqları hələ də qalmaqdadır. Tarixi abidə kimi qorunan Xaraba Gilan hər zaman turistlərin və yerli insanların maraq dairəsində olub.

Nəzarətçi onu da vurğuladı ki, burada daha çox diqqəti çəkən məqam sərdabələrin quruluşudur: "4 gözdən ibarət olan sərdabədə cəsədlər mərtəbə şəklində mumiyalanaraq yerləşdirilmişdir. Özü də, adətən, ağacların üzərində qoyulurmuş. Onların üst hissəsi isə cəviz ağacından olub. Qapısı isə üst tərəfdən olub".

İndiyədək şəhər yerində aparılan arxeoloji qazıntılar, yalnız dini və ictimai tikililəri əhatə edib, şəhərin əsas məhəllələri və Narınqalası, demək olar ki, tədqiq edilməyib. Ümumiyyətlə, Xaraba Gilanın Narınqalası və məhəllələri qala divarları ilə əhatə olunub. Narınqalanın sahəsi 10 hektardan çoxdur. Qala divarları dördkünc və dairəvi bürclərlə möhkəmləndirilib. Müdafiə divarı iki metr enində olub, çəkisi bir tona yaxın, bəzilərininki isə bir neçə ton olan daşlarla inşa edilib. Otaqlarda monqol işğalından sonra təmir-tələsik aparılan bərpa izləri aydın nəzərə çarpır. Müdafiə divarının uçulmuş daşları da yerinə qoyulmayıb. Daş, çiy və bişmiş kərpicdən yaşayış evləri, karvansaraylar, türbələr, məscid, habelə sənətkarlıq ocaqları və sair tikinti qalıqları aşkar edilib, çoxlu maddi mədəniyyət nümunələri – şirli və şirsiz qablar, şüşə və metal məmulatı, sikkələr, o cümlədən Roma qızıl pulları və sair tapılıb. Tapıntılar arasında XII-XIV əsrlərə aid gil qab və memarlıq abidələrinin qalıqları üzərində ərəb əlifbasının kufi və nəsx xətləri ilə yazılara da rast gəlinib.

Hazırda Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində Xaraba Gilanla bağlı guşələr yaradılıb. Muzeyin nəzarətçisi ***Aygün Xəlilova*** deyir ki, bu əraziyə aid edilən 3 guşədə 100-dən çox eksponat qorunub saxlanılır: "Bu şəhərin kimlər tərəfindən salındığı məlum olmasa da, bir neçə tayfa tərəfindən dağıdılıb. Son olaraq isə zəlzələ nəticəsində şəhər yerləyeksan olunub. Buna görə də yerli əhali tərəfindən bura "Xaraba Gilan" adlandırılır. Muzey guşələrindəki memarlıq nümunələri, saxsı qablar, küpələr arxeoloji qazıntılar zamanı tapılıb. Bir guşədə isə alimlərimizdən Əbülfəz Hüseynlinin arxeoloji qazıntılar zamanı aşkarladığı 7 cəsədin qalıqları üzərindən götürülən əşyalardır. Qazıntılar zamanı bu cəsədlərin 6-nın kişi, birinin isə qadın olduğu müəyyən edilmişdir ki, qadının da üzərində kətandan toxunmuş parça nümunəsi olub".

*Ordubad tarixi-memarlıq abidələrinə, relyefinə görə hər zaman səyyahların diqqətini cəlb edib. Bunun nəticəsidir ki, buraya səyahət edənlərin dedikləri yalnız bir söz olub: "Kiçik şəhərlər içərisində Avropada birinci, dünyada isə ikinci yaşayış məskəni olan Ordubada ilk dəfə qonaq gələn adam azıb qalmaz. Hər məhəllədə tikilmiş 2-3 məscid və qəbiristanlıq, tinlərin və dalanların kəsişdiyi yerlərdə salınmış karvansaraylar var, hər bir kəs hara keçib getsə də, yenə gəlib mərkəzi küçədə görüşəcəkdir". Naxçıvanın ərazisindəki tarixi abidələr qədim diyarımızın tarixi keçmişini yaşatmaqla yanaşı, həm də müasir dövrdə turizm potensialının artmasına zəmin yaradır. Turizmin ən ideal məkanlarından biri olan muxtar respublikada tarixi abidələrin geniş tədqiqi və təbliği hər zaman diqqət mərkəzindədir.*

✍ **Ceyhun MƏMMƏDOV**

## Elan

"Naxçıvan" Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261s nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planlarına əsasən aşağıdakı ixtisaslara qəbul elan edir. Doktorantura üzrə vakant yerlər aşağıdakı kimidir.

Doktoranturaya dövlət sifarişli:

*1. Beynəlxalq münasibətlər tarixi – 1 yer (qiyabi)*

Dissertanturaya ödənişli əsaslarla:

*1.Vətən tarixi – 1 yer*

*2. Azərbaycan dili – 1 yer*

*3. Azərbaycan ədəbiyyatı – 1 yer*

*4. Təhsilin təşkili və planlaşdırılması – 1 yer*

*5. Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi – 1 yer.*

## İtmişdir

Kəngərli rayonunun Xok kənd sakini Əliyev Anar Etibar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

000586 inventar nömrəli texniki pasport və MH0037055 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Çalxanqala kəndində yaşamış İmanov İmoş İmran oğlunun adına olan JN-088[A] inventar nömrəli, 10300018 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Günel Məmməd qızı Aydemirin adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 268